# "Vətən bizə oğul dedi"




2016-cı ilin şanlı Aprel döyüşləri getdiyi vaxtlarda televiziyada canlı yayımdakı çıxışımda söylədim ki, bu döyüş düşmən üzərinə verdiyimiz bir qələbə mesajımızdır. Yanılmadım.

2020-ci il iyulun 12-si, 13-ü, 14-ü Tovuz istiqamətindən Ağdam, Əlibəyli kəndlərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən atəşə tutulması və buna ordumuz tərəfindən layiqli cavablar verilməsi də bir daha düşməni sındırdı. Anladı ki, artıq bizə qıcadığı dişi vurub sındırırıq. Anladı ki, artıq bizə dişi bata bilmir. Amma yox, anlamadı. Donuz kimi başını aşağı salıb, murdarlığından, inadından əl çəkmədi. Anlasaydı, donuz kimi burnunu təzədən soxmazdı başı girməyən yerə. Anlasaydı, sentyabrın 27-də təzədən üstümüzə it kimi çəmkirməzdi, diş qıcamazdı. Nolar ki, düşmən olanda. Düşmən də bir qanan düşmən olmalıdır. Qanmaz dostdan qanan düşmən yaxşıdır. Amma bu mənfur ermənilər həm qarı düşmənimizdi, həm də qanmaz düşmənimiz. Deyir "neyniyənin qabağına neynəməsən, deyər nəyi yoxdu". Qanmaz düşmənə belə lazım idi ki, cavabını da aldı, dərsini də verdik, həddini də tanıtdıq. 44 gün ərzində açıq döyüşdə 30 illik problemi müzəffər ordumuz cənab Ali Baş Komandanın əmri ilə həll etdi. Əlbəttə, qanımız, canımız bahasına...

Xalqımızın tarixində bu şanlı döyüşləri bizə qazandıran qazilər və şəhidlərimiz zaman-bazaman kitablarda, qəzetlərdə və s. anılmaqla xatırlanıb yad ediləcəkdir.

Tovuz hadisələri də yazarlarımızın qələmində beləcə daima səhifələnəcək. General-mayor Polad Həşimovun və onun çiyindaşlarının xatirəsi işığında araya-ərsəyə gələn kitablardan biri də qələm dostlarımız Sabir Hüseynovla Hikmət Məlikzadənin tərtibçi – müəlliflikləri ilə işıq üzü görən "Vətən bizə oğul dedi" ("Maarif", 2020) kitabıdır. Məsləhətçisi KTN-nin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov, redaktoru Arif Musadır. Kitab Sabir Hüseynovun "Torpağa ömür olanlar" adlı dəyərli bir yazısı ilə açılır. "Millətə borcunu ödəmək yolu vətənə, millətə sevgidən keçir" – Xalq şairi B.Vahabzadənin bu aforizmi ilə başladığı yazıdan oxuyuruq: "Müqəddəs Quranımızda buyrulur ki, şəhid və qazi peyğəmbərdən sonra gələn adlardır...

Doğrudan da, insan müvəqqəti addımlayan torpaqdır. Bütün yollar geri qayıtdığı kimi, insan da doğuluşla ölüm arasındakı həyat adlı müvəqqəti ezamiyyətini başa vurduqdan sonra öz əbədi məskəninə-ana yerin ürəyinə qayıdır. Baxır kim necə qayıdır bu şirin, şirin olduğu qədər də acı, ibrətli səfərdən. Kimliyindən, nəçiliyindən asılı olmayaraq öz ölümləriylə torpağa birbaşa ömür verən, ona başıucalığı gətirən şəhidlərdir. Yalnız şəhidlər! Şəhid qanı-torpağın "ömür damarına" vurulan ən xalis qandır.

General Polad Həşimovun haqqında yazılan yazıları, əlyazmaları təzəcə oxuyub qurtarmamış və oradakı dərdlərin (lakin şərəfli), talelərin təsiri altında istər-istəməz bu sözləri yazıram və eyni zamanda xoş bir mütəəssirliklə ölməzlik haqqında düşünə-düşünə, yaddaşımdan ürəyimə işıqlı bir kəlamın öyüdləri damcılayır: torpaq-otu böyütdü, ot-atı böyütdü, at igidi, igid də getdi torpağını qorumağa.

Bəlkə bu kitabı oxumamışdan əvvəl bir Şəhidlər Xiyabanına baş çəkəydin, əziz oxucu!

"Allı-güllü" Şəhidlər Xiyabanına... Biz görmüşdük torpaq toxum puçurladar, çiçək bitirər, şitil yetişdirər, daha görməmişdik ki, bu "təntənədə" qəbir böyüdər...

Göz dağı kimi...

Amma təskinliyimiz bu olsun ki, həm də Vətən dərsi kimi. Gələcək nəsillərə görk kimi "ərməğan" kimi!

Fələk bir yandan vurur, külək bir yandan taleyimizi!" (səh.3-4).

Bu duyğusal fikirlərlə kitaba start verən müəllif general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər Elçin Mustafazadə, baş leytenant Rəşad Mahmudov, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov, əsgər Xəyyam Daşdəmirov kimi igid oğullarımızın adlarını çəkir. Qeyd edir ki, bu kitab



məhz bu şəhidlərimizin ruhu işığında qələmə alınıb.

Kitabda BSU-nun rektoru, professor, YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva, Qəbələ DAİM-nin direktoru Rahib Əhmədov, şair Arif Musa və b.-nın yazıları yer alıb. Cəlilabad rayon Privolnı kənd sakini Azad Əkbərovun "Məndən başlanır vətən" yazısı da mütəəssiredici ruh bağışlayır adama:

"Dünya yaranışdan bir kitabdır – göyü, yeri, torpağı, suyu... nəhayət, Adəmi, Həvvası bəlli bir kitab. İnsan, ibtidaidən normal həddə çatana qədər bu kitabı ibadət daşı kimi xarakterizə edib, lakin təfəkkür, zəka qatı açıldıqca, o, bu kitabı bir həyat gerçəyi kimi anlayıb. Və min illərdir kitablar daş yaddaşlardan sıza-sıza yüksək təbəqələrdə ulduz kimi sayrışmaqdadırlar. Hər kəs o təbəqəyə ucala bilməsə də, hər kitabdan o ucalığa bir çınqı düşür... Heç şübhəsiz, ömrünün ən çiçəkli çağında şəhid olan general-polkovnik Polad Həşimovun həyat kitabından da yüksək məqamlara bir ovuc həyat nəğməsi hopa biləcək..." (səh.67)

Kitab Hikmət Məlikzadənin "Qarabağ Azərbaycandır!" yazısı ilə tamamlanır və yazının məzmunundan aydın olur ki, həmin ərəfələrdə 44 günlük şanlı zəfər döyüşümüz hələ başa çatmamışdı. Budur, indi həmin kitab yazılıb qurtardığı kimi, şanlı döyüşlərimizi də ordumuz uğurla qurtarıb. Boy sırası çoxalan vətənin oğul dediyi igidlərimizin qəhrəmanlıq tarixini hələ bundan belə də çox-çox kitablardan səhifələyəcəyik.

***Şakir** Əlifoğlu*